Nr. 3507/1 Prot

Date . 20.06.2025

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏHKƏMƏ-HÜQUQ ŞURASI İLƏ ALBANİYA RESPUBLİKASININ ALİ MƏHKƏMƏ ŞURASI ARASINDA ANLAŞMA VƏ ƏMƏKDAŞLIQ MEMORANDUMU

Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası və Albaniya Respublikasının Ali Məhkəmə Şurası (bundan sonra "Tərəflər" adlandırılacaq), qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın qurulması, bilik və təcrübə mübadiləsinin həyata keçirilməsi, həmçinin Tərəflərin institusional potensialının gücləndirilməsi məqsədilə, bu gün, 18 iyun 2025-ci il tarixində aşağıdakı Anlaşma Memorandumunu imzalamışlar:

## PARAQRAF 1
## Məqsəd

1. Tərəflər, öz fəaliyyət sahələri çərçivəsində həyata keçirilən və dostluq münasibətlərinin möhkəmləndirilməsi və dərinləşdirilməsinə xidmət edən təşəbbüslərin icrası və inkişafı kontekstində əməkdaşlığın genişləndirilməsini nəzərdə tuturlar.

2. Bu Anlaşma və Əməkdaşlıq Memorandumunun (bundan sonra "Memorandum" adlandırılacaq) məqsədlərinə nail olmaq üçün Tərəflər, öz səlahiyyət və səlahiyyət sahələri çərçivəsində, məhkəmə sisteminin səmərəliliyinin artırılması, məhkəmə xidmətlərinin təşkili, eləcə də hakimlərin müstəqilliyinin və qərəzsizliyinin gücləndirilməsinə yönəlmiş birgə tədbirlər həyata keçirə bilərlər.

3. Bu Memorandum Tərəflər arasında əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi məqsədilə bağlanmışdır və 1969-cu il Vyana Konvensiyası ilə tənzimlənən beynəlxalq müqavilə xarakteri daşımır. Bu sənəd Tərəflərə və onların müvafiq dövlətlərinə beynəlxalq hüquq çərçivəsində, o cümlədən maliyyə xarakterli hər hansı hüquq və öhdəliklər yaratmır.

## PARAQRAF 2
## Əməkdaşlıq sahələri

Tərəflər, öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

1. Tədris və ixtisasartırma tədbirləri:

1.1. Tərəflər öz fəaliyyət sahələri ilə bağlı birgə tədris proqramları həyata keçirə bilərlər;

1.2. Tərəflər bir-birlərini özləri və ya tabeli təşkilatları tərəfindən təşkil olunan tədris proqramlarına, seminar və konfranslara dəvət edə bilərlər;

1.3. Tərəflər tədris və informasiya materiallarını mübadilə edə bilərlər;

2.Tədqiqat:

2.1. Tərəflər öz funksiyaları ilə əlaqədar məsələlər üzrə birgə tədqiqatlar aparmaq barədə razılığa gələ bilərlər;

2.2. Tərəflər razılıq əsasında öz funksiyalarına aid sahə üzrə ekspertləri təyin edə bilərlər;

3. Tərəflər öz funksiyalarına aid məsələlər üzrə birgə seminarlar təşkil edə bilərlər;

4. Bilik və təcrübə mübadiləsi:

4.1. Tərəflər razılaşdırılmış mövzularda bilik və təcrübə mübadiləsi apara bilərlər;

4.2. Tərəflər Tərəflərin fəaliyyətinin və məhkəmə sisteminin ümumi səmərəliliyinin artırılması məqsədilə məlumat mübadiləsi apara bilərlər;

4.3. Tərəflər məhkəmə idarəetməsi sahəsində, o cümlədən məhkəmə vəzifələrinə namizədlərin seçilməsi, yoxlanılması və təyin edilməsi, eləcə də hakimlərin rəhbər vəzifələrə təyin olunması təcrübəsini mübadilə edə bilərlər.

5.1. Bu Memorandum çərçivəsində digər əməkdaşlıq formaları da həyata keçirilə bilər.;

5.2. Digər əməkdaşlıq formalarına həmçinin Tərəflərin nümayəndələri üçün öyrənmə səfərlərinin və təlim səfərlərinin təşkili vasitəsilə beynəlxalq və milli təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi və mübadiləsinə dəstək göstərilməsi daxil ola bilər.

Əməkdaşlığın bütün detalları və şərtləri Tərəflərin qarşılıqlı razılaşması ilə müəyyən ediləcək

## PARAQRAF 3
## Kommunikasiya

Tərəflər 2-ci PARAQRAFdə göstərilmiş əməkdaşlıq fəaliyyətlərinin həyata keçirilməsi üsullarını və bu Memorandumda açıq şəkildə göstərilməmiş digər detalları elektron poçt vasitəsilə müəyyən edəcəklər.

Bu Memorandumun həyata keçirilməsi məqsədilə Tərəflər əlaqələrin saxlanması üçün məsuliyyət daşıyan struktur bölmələrini təyin edə bilərlər.

Tərəflər işin gedişatını müzakirə etmək, birgə fəaliyyətlərin koordinasiyasını təmin etmək və gələcək əməkdaşlıq məsələlərini planlaşdırmaq məqsədilə görüşlər təşkil edə bilərlər.

## PARAQRAF 4
## Xərclər

Hər bir Tərəf bu Memorandum çərçivəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı xərcləri, öz dövlətinin milli qanunvericiliyi ilə təmin olunmuş vəsaitlər hesabına, başqa cür qarşılıqlı razılaşma olmadıqca, müstəqil şəkildə öz üzərinə götürəcək.

## PARAQRAF 5
### Şəxsi məlumatların qorunması

Tərəflər bu Memorandumun icrası zamanı digər Tərəfdən əldə olunan məlumatların, sənədlərin və ya məlumatların məxfiliyinin təmin olunmasına sadiqdirlər. Belə məlumatlar hər iki Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü şəxslərə ötürülməyəcəkdir. Bu öhdəlik Memorandumun qüvvəsinin bitməsindən sonra da davam edəcəkdir.

## PARAQRAF 6
### Mübahisələrin həlli

Bu Memorandumun icrası ilə bağlı yaranan hər hansı mübahisə Tərəflər arasında məsləhətləşmələr yolu ilə qarşılıqlı razılıqla həll olunacaqdır.

## PARAQRAF 7
### Yekun müddəalar

Bu Memorandum onun imzalandığı tarixdən qüvvəyə minir.

Bu Memoranduma ediləcək dəyişikliklər yalnız Tərəflərin qarşılıqlı yazılı razılığı ilə həyata keçirilə bilər.

Bu Memorandumun tətbiqi Tərəflərdən birinin digər Tərəfin tətbiqini dayandırmaq niyyətində olduğunu bildirən yazılı bildirişini aldığı tarixdə dayandırılır.

Bu Memorandum 18 iyun 2025-ci il tarixində Bakı şəhərində hər biri iki nüsxədə olmaqla alban, azərbaycan və ingilis dillərində imzalanmışdır. Memorandumun mətnləri arasında hər hansı uyğunsuzluq yaranarsa, Tərəflər ingilis dilindəki mətni əsas götürəcəklər.

| | |
|---|---|
| Azərbaycan Respublikası<br>Məhkəmə-Hüquq Şurası adından: | Albaniya Respublikası<br>Ali Məhkəmə Şurası adından: |
| **İnam Kərimov** | **İlir Rusi** |
| İmza: ________________ | İmza: ________________ |
| Azərbaycan Respublikası<br>Məhkəmə-Hüquq Şurasının sədri | Albaniya Respublikasının<br>Ali Məhkəmə Şurasının<br>sədri |